

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

15 aprel 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 14 (3527)

# Qüdrətli ordu, Müzəffər Ali Baş Komandan və güclü Azərbaycan



**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib.**

Dövlətimizin başçısına parkda nümayiş etdirilən hərbi texnikalar barədə məlumat verilib.

Qeyd edək ki, xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb, Hərbi Qənimətlər Parkının salınması ilə bağlı təşəbbüs irəli sürüb. Yaradılmasına bu ilin yanvar ayından başlanılan və 5 hektar ərazini əhatə edən Park paytaxtın Xətai rayonundadır. Parkdakı eksponatların arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları var. Burada Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Hərbi Qənimətlər Parkı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

## Regionda sülhə Azərbaycan töhfəsi

**Aprelin 13-də ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak edib.**

Vətən savaşından sonra bölgədə vəziyyətin dəyişdiyinə, atəşkəs əldə olunmasına baxmayaraq, hələ də münaqişə ilə bağlı bir çox sualların qaldığına diqqət çəkən ölkə başçısı inkişaf üçün Azərbaycan daxilində, eləcə də sərhədlərdən kənarda stabilliyə ehtiyac olduğunu, risklərin minimallaşdırılması üçün gərəkli addımların atıldığını qeyd edib.

Azərbaycanın Qoşulmama Hərəkatında götürdüyü öhdəlikləri və regionda əməkdaşlığı beynəlxalq uğurumuz adlandıran Prezident İlham Əliyev Türkiyə-İran, Gürcüstan-Türkiyə və Rusiya ilə İran arasında üçtərəfli əməkdaşlığın stabilliyə daha bir töhfə verdiyini vurğulayıb.

Qarabağın iqtisadiyyatımızda, qeyri-enerji sektorunda, eləcə də nəqliyyat sahəsində mühüm yerlərdən birini tutacağını, üç hava limanının, dəmir yollarının əlaqələndirilməsi ilə bağlı işlərə başlanıldığını nəzərə çatdıran ölkəmizin rəhbəri Zəngilanın coğrafiyamızda mühüm daşınma və logistik mərkəz rolunu oynayacağına diqqət çəkib.

Konfransda dövlət başçımızın Zəngəzurun qədim Azərbaycan ərazisi olduğu barədə fikirləri də iştirakçıların marağına səbəb olub.

Rusiyanın sülhməramlı kontingentinin regionu tərk edəndən sonra hansı addımların atılacağı barədə sualı cavablandıran Prezident İlham Əliyev Tovuzda, Zəngilanda Ermənistanla sərhədlərimizi olduğunu xatırladıb və hər hansı bir insidentin qeydə alınmadığını bildirib.

Ali Baş Komandan 44 günlük Vətən savaşında Azərbaycana siyasi dəstək nümayiş etdirən ölkələrə - Türkiyə və Pakistana da xüsusi minnətdarlığını ifadə edib.

İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın beynəlxalq ictimaiyyətin gözü qarşısında şəhər və kəndlərimizi ballistik raketlərlə atəşə tutduğunu, işğaldan azad edilən Şuşaya "İsgəndər-M" raketinin atıldığını deyən Prezident İlham Əliyev bunun erməni barbarlığının aydın göstəricisi olduğunu diqqətə çatdırıb.

***Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko aprelin 13-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.***

***Belarus Respublikasının Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşılayıblar.***

***Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında qeyri-rəsmi görüş keçirilib.***

***Prezidentlərin iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.***

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırı qəbul edib.***

***Dövlətimizin başçısı aprelin 10-da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Erkan Özoralın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri aprelin 10-da Azərbaycan Respublikası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Yusif bin Əhməd əl-Osayminin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Fəzail Feyruz oğlu İbrahimlinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı aprelin 13-də 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Cəmşid Naxçıvanski adına hərbi liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

# CƏSUR KOMANDİR, İGİD DÖYÜŞÇÜ

## Döyüş yoldaşları onu belə xatırlayırlar...

Ötən ilin 27 sentyabr və 9 noyabr tarixləri xalqımızın və ordumuzun sınaq ili oldu. Ön cəbhədə, eyni səngərdə əsgərlə birlikdə generalın da sinəsini gülləyə sipər etməsi içilən anda sədaqətin bariz nümunəsi idi.

DİN Daxili Qoşunlarının təlimlərdə bərkiyən, əsl döyüş ab-havasında xidmət aparan gənc komandirləri – çiynində "leytenant" rütbəsi daşıyan hərbi qulluqçuları da torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın hücum əmrini gözləyirdi. Onlardan biri də leytenant Məmmədov Qəzənfər Habil oğlu idi. O, 23 avqust 1996-cı ildə Gəncə şəhərində doğulub. Qəzənfər 5-ci sinifə qədər Moskvada 363 saylı tam orta məktəbdə oxuyub. Sonra Gəncə şəhərində Mikayıl Müşfiq adına 14 saylı tam orta məktəbdə təhsilini davam etdirib. Riyaziyyat və tarix fənlərinə daha çox maraq göstərib, dünyagörüşünü artırmaq üçün səylə çalışıb, mütaliəyə xüsusi diqqət yetirib. Orta məktəbin ictimai həyatında da fəal olub.

Qəzənfər idmanın basketbol növü ilə məşğul olub, yarışlarda uğurla iştirak edərək medal, fəxri fərman və diplomlarla mükafatlandırılıb. Ümumilikdə, onun formalaşmasında sağlam həyat tərzi, idman və təhsil kimi amillər vacib rol oynayıb. Kiçik yaşlarından təşkilatçılıq, liderlik, etibarlı yoldaşlıq, dürüstlük, xeyirxahlıq cəhətləri özünü büruzə verib.

O, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun şərəfli ömür yolunu Vətən naminə fədakarlığın təzahürü kimi özünə



örnək bilirdi. Ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsində iştirak etmək idi. O tarixi günü, hücum əmrini böyük ruh yüksəkliyi ilə gözləyirdi. Məhz buna görə də yoldaşlarından fərqli olaraq hərbçi peşəsini seçdi.

Qəzənfər 2014-2018-ci illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbində hərbi təhsil alıb. Ali Hərbi Məktəbdə də tədris və təlimdə fəallığına görə müsbət xarakterizə olunub. Daxili Qoşunların layiqli yetirməsi kimi hərbi xidməti dövründə etimadı doğrultduğu üçün adı Ali Hərbi Məktəbin ilk buraxılış heyəti məzunlarının siyahısında idi.

2018-ci ilin iyununda leytenant Q.Məmmədov qoşunların Bakının Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsinə göndərilib, burada xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində qrup komandiri vəzifəsinə təyin edilib. Komandiri olduğu qrupun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi istiqamətində bilik və bacarığını əsirgəməyib. Tabeliyindəki hərbi qulluqçuların təlim-tərbiyəsi prosesində təcrübəli komandirlərin tövsiyələrinə diqqətlə yanaşıb. O, şəxsi heyətə hər zaman qayğı göstərib, hərbi kollektivdə birliyin qorunub saxlanılmasında öz məsuliyyətini dərk edib. Bununla yanaşı, Qəzənfər komandiri olduğu hərbi qulluqçulara fərdi söhbətlər zamanı, nəzəri və praktiki məşğələlərdə vətənpərvərlik hisslərini aşılayıb. Onları qarşıya qoyulan istənilən döyüş tapşırığının yerinə yetirilməsinə hazırlayıb.

Vətən müharibəsi başlayanda "N" saylı hərbi hissədən döyüş bölgəsinə ezam edilən leytenant Q.Məmmədov tabeliyindəki döyüşçülərlə birgə Füzuli, Xocavənd və Şuşa ətrafında döyüşlər zamanı düşmənə ağır zərbələr vurub.

Onunla birgə döyüş yolu keçmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları **çavuş Xəyal Yaşılov, baş əsgər Bəxtiyar Həsənov və əsgər Elvin Qurbanəliyev** komandirləri haqqında qürurla danışdılar, onun hər bir döyüşçüyə komandirdən çox qardaş münasibəti göstərdiyini söylədilər. Laçın-Şuşa yolunu nəzarətə götürməyə, bunun-la düşmənin bu istiqamətdən hərəkətini kəsməyə imkan verən əlverişli yüksəkliyin alınması və saxlanmasında leytenant Q.Məmmədovun komandiri olduğu qrupun şəxsi heyəti də fərqlənib. Düşmənin yenidən hücuma keçərək həmin yüksəkliyi geri almaq və yolu açmaq cəhdlərinin qarşısı alınıb. Noyabrın 6-dan 7-nə keçən gecə ağır döyüşlərdə leytenant Q.Məmmədov şəhidlik zirvəsinə ucalıb.

Şəhid hərbi qulluqçumuz noyabrın 12-də Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 25 və 29 dekabr 2020-ci il tarixli sərəncamları ilə leytenant Q.Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# İnformasiya əldə etmək əsas hüquqlardandır

## *Polis fəaliyyəti ilə bağlı qanunvericiliyə uyğun ictimaiyyətə məlumat verir*

İctimai mühitə təsir göstərən, maraqlı və əhəmiyyətli olan bütün hadisə və faktlar barədə informasiya almaq hüququ vətəndaşların fikir azadlığının tərkib hissəsidir ki, bu da Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunur. İnsan hüquq və azadlıqlarının əsas meyarlarından biri olan informasiyanın əldə edilməsi isə həm də cəmiyyətdə baş verən dinamik proseslərdən xəbər tutmaq üçün ən vacib elementlərdəndir.

Məhz "İnformasiya əldə etmək haqqında" Qanunun qəbul olunmasında əsas məqsəd məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin, ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaqdan ibarətdir.




"İnformasiya əldə etmək" haqqında Qanuna əsasən məlumatın əldə edilməsi üçün sorğu ilə müraciət etmək əsas şərtdir. İnformasiya sorğusunun 2 üsulu var: şifahi və yazılı.

Şifahi şəkildə informasiya sahibinin vəzifəli şəxsinə bilavasitə və ya telefonla müraciət etməklə məlumat almaq mümkündür. Adətən jurnalistlər məlumatın əldə edilməsi barədə yazılı sorğuya üstünlük verirlər. Çünki şifahi sorğu və ya verilən cavablar sonradan müəyyən problemlərə yol açır. Yazılı sorğuya gəlincə, ona Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. İnformasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilir. Qanunda göstərilən müddətdə həmin məlumat öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində (bayram və istirahət günləri istisna olmaqla) təqdim edilir. Əgər sorğu natamam və ya qeyri-dəqiq tərtib olunubsa, vəzifəli şəxs müəyyən edilmiş çatışmazlıqlar barədə sorğuçuya 5 iş günü ərzində məlumat verir.

Cəmiyyətdə baş verənlərin əsas iştirakçıları kimi vətəndaşların ən çox təmasda olduğu və informasiya əldə etmək üçün müraciət etdiyi daxili işlər orqanları da işini günün tələblərinə uyğun olaraq qanun çərçivəsində qurur.

"Polis haqqında" Azərbaycan Respublikası Qanununun "Polisin fəaliyyətində aşkarlıq" adlanan 6-cı maddəsinin 1-ci bəndində göstərilir ki, polis öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada dövlət orqanlarına və əhaliyə məlumat verir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

**COVID-19 infeksiyasının qarşısını almaq məqsədilə paytaxtda və bölgələrdə polis tərəfindən reydlər davam etdirilir.**

# *Polisdən qətiyyətli tədbirlər*

## *Qaydalara riayət etməyənlər məsuliyyətə cəlb olunurlar*

Ötən həftə həyata keçirilmiş tədbirlər zamanı İmişli, Balakən, Tovuz, Goranboy, Cəlilabad və Göyçay rayonlarında karantin rejimi qaydalarına zidd olaraq nişan və toy mərasimlərinin keçirilməsinin qarşısı adıçəkilən Rayon Polis şöbələrinin əməkdaşları tərəfindən alınıb.



Qazax Rayon Polis Şöbəsinə isə rayon ərazisindəki "İsrafil Ağa" adlı hamamın sanitar-karantin qaydalarına zidd olaraq, gizli şəkildə fəaliyyət göstərməsi barədə məlumat daxil olub. Polis əməkdaşları dərhal həmin ünvana gedərək obyekt işçilərini və müştəriləri polis şöbəsinə gətiriblər.



Nərimanov rayonunda da toy mərasiminin keçirilməsinin qarşısı alınıb. Belə ki, Nərimanov Rayon Polis İdarəsinin və 18-ci Polis Şöbəsi əməkdaşlarının birgə keçirdikləri tədbirlərlə sanitariya-gigiyena və karantin rejim qaydalarını pozan obyektin sahibi, xidmət personalı, mərasimin təşkilatçıları və iştirakçıları müəyyən edilib.

Yeri gəlmişkən, ötən həftənin şənbə və bazar günlərində daxili işlər orqanlarının əməkdaşları tərəfindən respublika ərazisində 17 nəfər aktiv




koronavirus xəstəsi ictimai yerlərdə aşkar olunaraq saxlanılıb.

Onlar ev şəraitində müalicəyə cəlb edilmələrinə baxmayaraq, sanitar-karantin qaydalarını kobud şəkildə pozaraq yaşadıqları ünvanları tərk ediblər. Həmin şəxslər ictimai yerdə hərəkətdə olarkən polislər tərəfindən saxlanılıb və yaşadıqları ünvana geri qaytarılıblar.

Polis əməkdaşları onlarla izahedici söhbətlər aparıb və bu barədə müvafiq səhiyyə qurumlarını məlumatlandırıblar.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə hamımız səfərbər olmalı, qoyulan qadağalara riayət etməli və ona birlikdə qalib gəlməliyik. Belə olduqda özümüzü, ailəmizi və yaxınlarımızı həyati təhlükədən qorumuş olarıq.

*"Polis"*

# Bir məktubun sorağı ilə...

**Vətəndaş məmnunluğu, cinayətkarlığa qarşı qətiyyətli mübarizə, ictimai asayişin və təhlükəsizliyin təmini daxili işlər orqanlarının fəaliyyətinin təməl prinsipidir.**

Bu istiqamətdə görülən işlərdə Nəqliyyatda Baş Polis İdarəsinin və onun struktur hissələrinin də özünəməxsus rolu var. Onlar dəmir yolu, hava, su nəqliyyatında vətəndaşların rahat, maneəsiz və təhlükəsiz hərəkətinin təminatçılarıdır...

Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin Biləcəri Xətt Polis Şöbəsinə gedişimin səbəbi isə vətəndaş Eldəniz Məmmədovun DİN-ə ünvanladığı təşəkkür məktubu idi.

Həmsöhbətim **XPŞ-in rəis müavini, polis polkovnik-leytenantı Nəcəf Zeynalov** bir çox mətləblərə toxunaraq ərazidə xidmət aparan post-patrul və əməliyyat xidmətinin əhəmiyyətindən danışdı. O, şəxsi heyətin hər səhər xidmət öncəsi təlimatlandırıldığını, giriş-çıxışlarda, bilet kassalarının qarşısında karantin qaydalarına riayət olunmasına ciddi nəzarətin həyata keçirildiyini, eləcə də yük qatarlarının ölkədaxili daşınmalarının təhlükəsizliyinin təmin edildiyini bildirdi. Qeyd etdi



ki, dəmir yolunun strateji əhəmiyyəti baxımından xidmətə cəlb olunan əməkdaşların ikiqat məsuliyyətli olmaları vacib amildir.

Sözügedən məktuba gəlincə, polis polkovnik-leytenantı N.Zeynalov bunları diqqətə çatdırdı: "Xətt Polis Şöbəsinin Post-Patrul Xidməti taqımının komandiri, polis leytenantı Süleyman Məmmədov və manqa komandiri, polis baş serjantı Əli İsmayılzadə ərazidə olarkən "Kolxoz" bazarı adlandırılan yerdə içərisində 180 manat və sənədlər olan pulqabı aşkar ediblər. Pulqabının sahibinin ünvanını müəyyənləşdirsələr də, telefon zənglərinə cavab verən olmayıb. Bir neçə saatdan sonra şöbənin Növbətçi hissəsinə yaxınlaşan Eldənizi asayiş keşikçiləri qarşılayıb və pulqabını ona təqdim ediblər".

*Teymur Əlizadə,*
*polis mayoru*

# Hərəkət iştirakçıları maarifləndirilir

## *Məqsəd sürücülərin də, piyadaların da həyatını qorumaqdır*

**Qax Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları piyadaların hərəkətinə mane olan sürücülərin, eləcə də yolun təyin olunmayan hissəsindən keçən piyadaların müəyyən edilməsi məqsədi ilə reyd keçiriblər.**



Reyd zamanı mövcud keçidlərdən istifadə etməyərək öz həyatları ilə yanaşı, digər hərəkət iştirakçılarına da ciddi təhlükə yaradan piyadalarla yol hərəkətinin təhlükəsizliyi barədə maarifləndirici söhbətlər aparılıb. Edilən xəbərdarlıqlara baxmayaraq yolun piyadalar üçün nəzərdə tutulmayan hissəsindən istifadə edən şəxslərə isə inzibati protokollar tərtib olunub. Keçidlərdə piyadalara yol verməyən sürücülər müəyyən edilərək müvafiq tədbirlər görülüb.

Reydlər Ağdaş rayonunda da həyata keçirilib. RPŞ-nin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları şəhərin küçə və prospektlərində dayanma-durma qaydalarının pozulmaları hallarını müəyyən ediblər.

Dayanma-durma, parklanma qaydalarını pozan, eləcə də avtobus dayanacaqlarını, piyada səkilərini zəbt edən nəqliyyat vasitələrinin sürücüləri ilə maarifləndirici söhbətlər aparılıb. Bu qaydaları kobud şəkildə pozan avtomobillərin sahiblərinə inzibati protokollar tərtib olunub.

Şəmkirdə də piyadalar arasında intizamın möhkəmləndirilməsi, hərəkətin təhlükəsizliyinin təmini, xüsusilə də piyadaların həyat və sağlamlığının qorunması məqsədi ilə profilaktiki tədbirlər davam etdirilib.

Belə ki, keçidlərdə piyadalara yol verməyən sürücülər, sürücülük hüququ olmadan avtomobil idarə edən və digər qayda pozan şəxslər müəyyən edilərək barələrində müvafiq tədbirlər görülüb.

Reydlər Oğuz rayonunda və Sumqayıt şəhərində də davam etdirilib.

*"Polis"*

# Müraciət etdi, məmnun qaldı...

Vətəndaşların müraciətləri DİN rəhbərliyi tərəfindən nəzarətə götürülür, həll olunması üçün müvafiq tədbirlər görülür. Xüsusən şəhid ailələrinin problemləri ilə maraqlanılır, onlara diqqət və qayğı göstərilir.



Sabirabad rayon Qaratəpə kənd sakini, şəhid həmkarımız Vaqif Bayramovun həyat yoldaşı Ağabəyim Bayramova etdiyi müraciətə həssaslıqla yanaşılaraq üzləşdiyi problemin həll edilməsində ona köməklik göstərdiyi üçün minnətdarlığını ifadə edir.

O, müraciətinə dərhal reaksiya verilərək DİN-in Baş İstintaq və Təhqiqat İdarəsinə dəvət edildiyini və məsələnin operativ şəkildə həllini tapdığını yazır: "Bir daha əmin oldum ki, Vətən uğrunda şəhid olanların ailə üzvləri dövlətin diqqətindən kənar qalmır. Bizlərə hər zaman hörmətlə yanaşılır, qayğılarımızla maraqlanılırlar".

# Silah-sursat aşkar edilib

İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.



Laçın Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi növbəti tədbir zamanı Xocavənd rayonunun Üçtəpə ərazisində düşmənin atıb qaçdığı 5 pulemyot, 2 qumbaraatan, minaatan qurğusu, tüfəng, 3 əl qumbarası, 29 avtomat darağı, 7 müxtəlif çaplı mərmi, 4500 ədəd güllə və digər döyüş sursatları aşkar edilərək götürülüb.

# Etimadı doğruldurlar

## *Ağcabədi Rayon Polis Şöbəsi ilin birinci rübünü uğurla başa vurub*

**Tərtər, Yevlax və Ağcabədi rayonlarında oğurluq və quldurluq cinayətləri törədən Elməddin Ələsgərov və onunla əlbir olan Cavid Quliyev aprelin 10-da tutularaq məsuliyyətə cəlb edilib.**




Bu faktı sıradan bir cinayət hadisəsi kimi qeyd etmirik. **Ağcabədi RPŞ-nin rəisi, polis polkovniki Ənvər Həsənov** bu cinayətin üstünün açılmasında və şübhəlilərin tutulmasında şəxsən iştirak edib. Ümumiyyətlə, rəhbər şəxsin törədilən cinayətlərin açılmasında şəxsi iştirakı nümunəvi presedentdir. Çünki sahəsindən asılı olmayaraq, bütün əməkdaşların qarşısında hər bir hadisəyə çevik reaksiya vermək vəzifəsi qoyur. Zənnimizcə, cinayətkarlıqla mübarizədə uğur əldə etməyin ilkin şərti də budur.

Ağcabədi Rayon Polis Şöbəsi cinayətkarlıqla mübarizə ilə yanaşı, COVID-19 infeksiyasının yayılmasına qarşı imkanları səfərbər edib və bu mübarizə şöbənin ötən il əsaslı təmir olunan inzibati binasından başlayır desək, yanılmarıq. İnzibati binanın giriş qapısında hərarət ölçən cihaz, gigiyenik vasitələr, tənəffüs yollarını qoruyan tibbi maskalar qoyulub, vətəndaşların növbəli giriş-çıxışı, ara məsafəsinin gözlənilməsi kimi qaydalar Operativ Qərargahın tövsiyə və göstərişlərinə uyğun təşkil edilir.



RPŞ rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis mayoru Tural Məlikovun sözlərinə görə, əsasən təsərrüfatla məşğul olan rayon sakinlərinin bazarlarda, əkin-biçin sahələrində toplaşması halları müşahidə olunur. Polis isə təsərrüfat fəaliyyəti üçün yaradılan imkanları məhdudlaşdırmadan, karantin qaydalarına nəzarət tədbirlərini həyata keçirir. Aparılan qabaqlayıcı və maarifləndirici işin nəticəsidir ki, digər rayonlarla müqayisədə Ağcabədidə yoluxma səviyyəsi çox aşağıdır.

Qaydaları kobud şəkildə pozanlara qarşı adekvat tədbirlər görüldüyünü deyən T.Məlikov qeyd edir ki, cərimələr tətbiq edilərkən vətəndaşların sosial vəziyyəti nəzərə alınır. Cərimə son çarədir və ona qədər bütün vasitələrdən - profilaktik, izahedici söhbətlərdən istifadə edilir. Vətəndaş məmnunluğunun təmin edilməsinin həm DİN, həm də RPŞ rəhbərliyi tərəfindən əsas tələb kimi müəyyən edildiyini xatırladan müsahibimiz rayonda polis-vətəndaş münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayır.

Əməkdaşların fiziki hazırlıqlarına ciddi önəm verilməsi Polis Şöbəsinin həyətindəki idman şəhərciyindən bəlli olur. Bu şəhərcik fiziki hazırlıq məşğələlərinin fasiləsiz keçirilməsini təmin edir. Bundan əlavə, karantin qaydalarını gözləməklə peşə dərslərinin keçirilməsi, gənc əməkdaşların polis veteranlarının təcrübəsindən səmərəli istifadə etməsi də rəhbərliyin diqqət mərkəzindədir.

Yeri gəlmişkən, polis şöbəsinin rəhbərliyinin iştirakı ilə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və qazilərlə də mütəmadi görüşlər təşkil olunur, onların polisin səlahiyyətinə aid olan problemləri yerindəcə həll edilir, o cümlədən vətəndaş müraciətlərinə də həssaslıqla yanaşılır.

Rayon Polis Şöbəsinin həyata keçirdiyi tədbirlər, vətəndaşlarla qurulan peşəkar münasibət, təbii ki, cinayətkarlığa qarşı mübarizəyə müsbət təsir göstərir və bu özünü statistik rəqəmlərdə aydın büruzə verir.

Polis Şöbəsindən aldığımız məlumata görə, 2021-ci ilin 3 ayı ərzində rayon ərazisində 89 cinayət hadisəsi qeydə alınıb ki, bunların da hər birinin üstü "isti izlər"lə açılıb. Yəni, cinayətlərin açılması 100 faiz təşkil edir. Bu göstərici ötən ilin müvafiq dövründə 90 cinayətlə, 95,7 faiz olmuşdur. Xəbərsiz itkin düşən 3 nəfərin tapılması təmin edilib. Qəsdən adam öldürmə, adam öldürməyə cəhd, quldurluq, soyğunçuluq cinayətləri, ümumiyyətlə, qeydə alınmayıb.

Rayon Polis Şöbəsinin İstintaq Bölməsi tərəfindən hesabat dövründə istintaqı tamamlanmış işlər üzrə müəyyən edilmiş 120 min 755 manat maddi zərərin 85,5 faizinin ödətdirilməsi təmin edilib. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə daim nəzarətdə saxlanılıb. Keçirilmiş əməliyyat tədbirləri nəticəsində aşkar edilən 21 cinayət faktına görə ümumilikdə 12 kiloqram 979,601 qram narkotik vasitə aşkar edilərək dövriyyədən çıxarılıb.

Bu göstəricilər də təsdiq edir ki, Ağcabədidəki həmkarlarımız həm DİN rəhbərliyinin, həm də ictimaiyyətin etimadını doğruldurlar.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*




**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Ağdam rayon sakini O.Səfərov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqramdan artıq heroin, 104 qrama yaxın metamfetamin və narkotik maddələrin satışında istifadə edilən plastik bank kartı aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun Xətai rayonu ərazisində kirayədə yaşadığı mənzildən isə 28 kiloqram 790 qram heroin, 5 kiloqram 150 qram metamfetamin, 453 ədəd metadon həbi, 2 ədəd elektron tərəzi və narkotik maddələrin satışından əldə olunan min manat pul götürülmüşdür.

◆◆◆

**Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Mingəçevir şəhər sakini F.Paşayev idarə etdiyi "KİA" markalı avtomobildə sərnişinləri - həmyerlisi P.Salamov və Bakı şəhər sakini E.Eyyubovla birgə Gəncə şəhərində saxlanılmışlar.

Avtomobilə baxış zamanı oradan 1 kiloqramdan artıq heroin və 5 kiloqram 600 qram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nizami RPİ 25-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş R.Həmzəyevdən "AKM" markalı silah aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Yasamal RPİ 28-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində aprelin 7-də "Azəriqaz" İB-yə məxsus 3 min manat dəyərində 80 metr borunu kəsərək oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini R.Quliyev saxlanılmışdır. Araşdırma aparılır.

◆◆◆

Aprelin 8-də Bakı şəhər sakini E.Bağırov idarə etdiyi "BMW" markalı avtomobilinə əlavə səs siqnalı quraşdırdığı üçün **Səbail RPİ-nin** əməkdaşları tərəfindən saxlanılmış və avtomobil cərimə meydançasına yerləşdirilmişdir.

Davam etdirilən əməliyyat tədbirləri ilə avtomobilə baxış zamanı oradan "MP-654 K" markalı pnevmatik tapança aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Göytəpə şəhər sakini, əvvəllər məhkum olunmuş E.Mustafayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 6 qrama yaxın heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı əlavə olaraq 1 kiloqramdan artıq heroin, "AKM" markalı avtomat, patron darağı və 17 ədəd patron götürülmüşdür.

◆◆◆

**Şirvan Şəhər Polis Şöbəsinə** aprelin 9-da bir nəfərin Hacıqabul rayon sakini N.Quliyevin açıq talama yolu ilə 560 manatını alması barədə müraciət daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Nuriyev müəyyən edilərək saxlanılmışdır. Faktla bağlı Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsi ilə cinayət işi başlanmışdır.

◆◆◆

**Sabirabad RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində R.Əliyevin şəhər ərazisindəki evinin həyətindən kultivasiya yolu ilə yetişdirilmiş 251 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Quba RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində aprelin 11-də rayon ərazisindəki evlərin birindən 5 min manat və 6 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən ev sahibinin gəlini M.Süleymanova saxlanılmışdır.

*C.Natiq*
*M.Xəyalə*

# Yol nişanlarının yaranma tarixi

**Yol nişanlarının yaranma tarixi insanları hər zaman düşündürüb. Bir çox tədqiqatçılar onun hətta ibtidai icma dövrünə təsadüf etdiyini də deyirlər.**

Texniki tərəqqi cəmiyyətin inkişafına da təkan verdi. Məsafənin qısaldılması üçün elmin nailiyyətləri insanların köməyinə çatsa da, bu, böyük meqapolislərdə problemləri qaçılmaz etdi. Daha doğrusu, yollarda nəqliyyat vasitələrinin sayı artdıqca, yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin təmin etmək əsas məsələlərdən birinə çevrildi. Yüksək sürət, uzun əyləc məsafəsi, mövcud şərait sürücülərə və piyadalara lazımi məlumatları verəcək nişanlar sisteminin yaradılmasını tələb edirdi.



Buna görə də Avropalı mütəxəssislər 1906-cı ildə beynəlxalq bir konqresdə yol nişanlarının bütün dünyada vahid formasını yaratmaqla bağlı fikir irəli sürdülər. Növbəti qurultayda təsdiqlənən 26 nişanın əksəriyyəti xəbərdaredici, qadağanedici göstərişlər idi. Yollarda yerləşdirilən lövhələrdə yalnız şəkillər, rəqəmlər və istiqamət bildirən ox görmək mümkün idi. Onları xarici dili bilmədən də başa düşmək olurdu. Qeyd edək ki, Avropalıların amerikalılardan, obrazlı desək, oğurladıqları yeganə nişan – söz: STOP 2.5 (Dayanmadan keçmək qadağandır) nişanı idi.

SSRİ-də isə 1931-ci ildə bütün hərəkəti əhatə edən yeni yol nişanları müəyyən olunmuşdu.

"Yol nişanları və siqnalları haqqında" 8 Noyabr 1968-ci ildə Vyana Konvensiyası ilə yol nişanlarının beynəlxalq birləşdirilməsi baş tutdu. Azərbaycan da bu Konvensiyaya həmin tarixdən qoşulub. Hazırda yollarda hərəkət bu konvensiya ilə təsdiqlənən işarələrə əsasən nizamlanır.

Beləliklə, bütün dünyada yol nişanları 7 qrupa bölünür.

**Xəbərdarlıq nişanları** - hərəkət zamanı şəraitə uyğun tədbirlər görülməsi tələb edilən yolun təhlükəli sahəsinə yaxınlaşma və təhlükənin xarakteri barədə yol hərəkəti iştirakçılarına məlumat verir.

**Üstünlük nişanları** - yolayrıcılarını, yolun hərəkət hissəsinin kəsişmələrini, habelə əks istiqamətlərdə hərəkət edən iki nəqliyyat vasitəsinin eyni zamanda keçməsinə imkan verməyən dar sahələri keçmək növbəliyini göstərir.

**Qadağan nişanları** - yol hərəkəti iştirakçılarının hərəkətlərinə müəyyən məhdudiyyətlər qoyur, yaxud onları ləğv edir.

**Məcburi hərəkət istiqaməti nişanları** - sürücülərə nəqliyyat vasitələrinin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini, müvafiq nəqliyyat vasitələrinin hərəkətini, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulan yolları göstərir.

**Məlumatverici-göstərici nişanlar** - hərəkət zamanı müəyyən rejimi tətbiq və ya ləğv edir, eləcə də yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi barədə məlumat verirlər.

**Servis nişanları** - yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir.

**Əlavə məlumat nişanları (lövhəciklər)** - birlikdə tətbiq olunduğu nişanların təsirini dəqiqləşdirir və ya məhdudlaşdırır.

*Ruslan Vəliyev, polis leytenantı*

# MÜHARİBƏ və ASAYİŞ

Müharibənin ağrı-acısı yalnız aktiv hərbi əməliyyatların getdiyi dövrdə özünü göstərmir. Tanklar, toplar susandan sonra, adətən, dağıntıların, itkilərin "dili açılır" və o zaman məlum olur ki, savaşın yaraları sarımaq üçün hələ xeyli vaxt, enerji sərf edilməlidir. Müharibədən sonra azad edilən ərazilərdə ictimai asayişin qorunması və təhlükəsizliyin bərqərar edilməsi bu kimi qayğıların ən başında gəlir.

İkinci Dünya müharibəsindən sonra, bir neçə halı istisna etsək, dövlətlər arasında uzunmüddətli və genişmiqyaslı işğalla nəticələnən müharibələr baş verməyib. Çağdaş müharibələr ya separatçılıq meyillərindən qaynaqlanıb, ya da keçirilən hərbi əməliyyatlar əsas etibarı ilə terror qruplaşmalarına qarşı yönəlib. Buna baxmayaraq, münaqişəyə cəlb olunan dövlətlər üçün hər zaman ictimai asayişin və təhlükəsizliyin təmini həll edilməli olan bir nömrəli problem sayılıb.



Dünyada post-münaqişə dövründə asayişin qorunması üçün müxtəlif metoddan istifadə edilib, edilir.




Vətəndaş müharibələrinə səhnə olan bəzi Afrika ölkələrində və ya ərəb coğrafiyasında münaqişəli bölgələrdə ictimai təhlükəsizliyin təmin edilməsinə, əsasən, mülki şəxslərdən formalaşdırılan silahlı, hətta əlidəyənəkli qruplara rəhbərlik edən ağsaqqallardan ibarət şuralar cavabdehdir. Bu qruplar, bir növ, qoruma ehtiyaclarını dərhal həll etmək zərurətindən yaradılır. Onların işi ümumi təhlükəsizliyi qorumağa yönəlir, məsələn, digər silahlı qrupların basqınının qarşısını almaq, kütləvi qarət halları ilə mübarizə, qisas zəminində qətllərin törədilməsinə imkan verməmək kimi keşikçi funksiyalar daşıyırlar.

Hətta, bəzi yerlərdə kəndlilərə asayişin qorunması, cinayətlərin araşdırılması və cinayətkarların təqib olunması, cəzalandırılması kimi geniş polis səlahiyyətləri də verilir.

Ancaq, aydın məsələdir ki, polis gündəlik təhlükəsizlik tədbirləri yanaşı, ədaləti və ictimai asayişi qoruyan mütəşəkkil, qanunlara əsaslanan təşkilatdır. Belə qruplar isə münaqişə zamanı və ya ondan sonra ailədaxili zorakılığı, qeyri-aşkar şəraitdə törədilən hadisələrin açılmasını, mülkiyyət əleyhinə törədilən cinayətləri araşdırıb, həqiqəti üzə çıxarmırlar. Bunun üçün peşəkarlıq çatışmır. Məhz bu çatışmazlıq ona səbəb olur ki, yerli dəstələr ədalətliliyi təmin edə bilmirlər, azlıqlara qarşı ayrıseçkilik olur, varlı və nüfuzlu şəxslərə üstünlük verilir. Ən əsası da onların davranışları öz ideologiyalarını və adətlərini əks etdirdiyinə görə son nəticədə məhdud təbəqənin maraqlarının qorunmasına yönəlir.

Bəlkə də bu situasiya, polis olmasa nə baş verər sualına da əyani bir cavabdır...

İkinci Dünya müharibəsindən sonra, yuxarıda istisna hal kimi nəzərdə tutduğumuz savaşlardan biri ABŞ-la Vyetnam arasında baş verən müharibədir. Şimali Vyetnamın kommunist hərəkatı Cənubi Vyetnam və müttəfiqi olan ABŞ-a qarşı mübarizədən 1975-ci ildə qalib ayrılandan sonra azad edilmiş ərazilərlə bağlı bir direktiv yayımlamışdı. Sözügedən sənəd azad edilən ərazilərdə asayişin qorunması ilə bağlı ictimaiyyətə açıqlanan nadir aktlardan biri sayılır.

Sənədin ideoloji tərəflərini nəzərə almasaq, demək olar ki, vacib təhlükəsizlik göstərişlərini özündə ehtiva edir. Orada qeyd edilir ki, amerikalılardan və onların oyuncaq dövlətlərindən azad edilmiş ərazilərdə düşmən kəşfiyyatı, psixoloji müharibə üçün gizli üzvləri fəaliyyət göstərir. Silahı, radioəlaqə vasitələrini və hərbi texnikanı təhvil verməyi rədd edən qruplar ictimai asayişi pozmağa yönələn hərəkətlər edirlər.

Bu halların qarşısını almaq üçün ictimai asayişi və təhlükəsizliyi pozanları qısa müddətdə və qətiyyətlə həbs etməyi, onları mühakimə üçün vaxt itirmədən hərbi məhkəməyə göndərməyi əmr edən direktiv, patrul nəzarətinin gücləndirilməsini, düşməndən qalan sənədlərin diqqətlə qorunub saxlanılmasını, hətta məhv edilməsinin qarşısının alınmasını vacib tələb kimi müəyyən edirdi.

*Hazırladı: R.Mehtiyev*

## Aprel ayının 7-dən 13-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 174 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 36 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 181, o cümlədən borclu şəxs qismində axtarışda olan 126 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 96 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

### DÜNYA TARİXİNDƏ BƏRAƏT ALAN İLK CİNAYƏTKAR: BİLLİ MİLLİQAN

Uilyam Stenli Milliqan 1955-ci ildə ABŞ-da Mayami Biçdə dünyaya gəlib. Billi Milliqan psixiatriya tarixinə düşmüş ən məşhur DİD (dissassotive indentity disorder-dissosiativ şəxsiyyət pozğunluğu) diaqnozlu Amerika vətəndaşı idi. Bu psixi pozuntu insanın şəxsiyyətinin bir neçə fərqli şəxsiyyətlərə bölünməsidir. Bu xəstəlik, uşaqlıqda yaranmış problemlərin, aqressiyanın, təcavüzün, uşağa istəmədiyi bir şeyi zorla etdirilməsi, yalnızlığın və s. nəticəsində əmələ gəlir. Beyin istər-istəməz ikinci insanı yaradaraq, özünü sakitləşdirməyə çalışır.



Psixi pozuntu nəticəsində yaranan "şəxsiyyətlər"in davranışı, düşüncə tərzi bir-birindən fərqli olur. Bu hal ilk günlər narahatlıq doğurmur, sonradan vərdiş halına çevrilir və bir müddətdən sonra insanı bezdirir.

Billi Milliqanın 24 "şəxsiyyət"inin xüsusiyyətlərindən yalnız 10-u üzdə olur, qalanları isə müxtəlif əxlaqsız davranışlar səbəbindən qarşısı sərt şəkildə alınırdı.

1975-ci ildə silahlı soyğun törətdiyinə görə Milliqan həbs olunur. 1977-ci ildə azadlığa çıxdıqdan sonra o, yenidən həbs edilir.

Milliqan üç dəfə soyğunda, üç dəfə zorakılıqda günahlandırılaraq mühakimə olunur. Onun müdafiəsi prosesində Doktor Uillis K.Driskoll tərəfindən aparılan psixoloji ekspertiza nəticəsində Billiyə ağır şizofreniya diaqnozu qoyulur. Daha sonra Billi psixoloq Doroti Terner tərəfindən müayinə edildikdə aydın olur ki, o, həqiqətən də DİD xəstəliyindən əziyyət çəkir. Milliqanın vəkilləri Hari Şveyqart və Cudi Stivenson onun psixoloji xəstə olduğunu sübut edir və o, yenidən psixiatrik klinikaya yerləşdirilir.

1991-ci ildə 10 illik intensiv müalicədən sonra Billi Milliqan sağalmış hesab edilərək azadlığa buraxılır. Billinin Proqramlaşdırma, Fizika və Riyaziyyata həvəsi güclü olduğundan, 1991-ci ildə "Harsesis" adlı geniş ünsiyyət imkanlarına malik olan süni intellekt proqramını yazır və çoxlu sayda internet saytları yaradır.

Klinikadan çıxdıqdan sonra Billi Milliqan Uşaq Hüquqlarının Müdafiəsi birliyində çalışır, zərər çəkmiş uşaqların iddialarının sığorta şirkətlərində təmin olunması üzrə danışıqlar aparır. Həbsdə olan savadsız insanları konsultasiya edir və onların təhsil almasına köməklik göstərirdi. Ömrünün qalan günlərini qocalar evində keçirən Milliqan 59 yaşında Kolumbusda (Ohayo ştatı) dünyasını dəyişir.

### PUL ÜZƏRİNDƏ TƏSVİRİ OLAN İLK CİNAYƏTKAR KİMDİR?

Fransis Qrinuey britaniyalı memar idi. 1812-ci ildə sənədləri və qiymətli kağızları saxtalaşdırmaqda təqsirli bilinən Fransisə məhkəmənin qərarı ilə edam hökmü oxunur. Lakin son nəticədə Avstraliyada edam hökmü 14 il həbs cəzası ilə əvəz olunub.

Sürgündə olan Fransis Yeni Cənubi Uelsə gətirilib. Burada ştatın eks qubernatoru və tanışı Artur Filippin köməkliyi ilə müstəmləkəçilər üçün tikilən evlərdə işlə təmin edilir.

Bələdiyyə onun işini yüksək qiymətləndirir və azadlığa buraxılması üçün bilet verir. O, Sidneydə 49 tikilinin inşasında yaxından iştirak etməklə yanaşı, Makkouri dəniz fənərinin, Vindzor məhkəmə binasının, Ali Məhkəmə binasının, Müqəddəs Ceyms kilsəsi və s. tikililərin memarı olub.




Memarlıqda göstərdiyi bacarıq və nailiyyətlərinə görə onun təsviri 10 avstraliya dollarının üzərində həkk edilir. Beləliklə, Fransis Qrinuey Avstraliya tarixində banknot üzərində təsviri olan ilk və yeganə cinayətkar olub.

*Hazırladı: R.Əliyeva*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik